Bəli, Zərifə xanım Əliyeva Allahın ona bəxş etdiyi ömür payını mənalı yaşayaraq zəngin mənəviyyata sahib əsl ziyalı, böyük alim kimi çoxşaxəli fəaliyyəti ilə ölkəmizdə tibbin inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Bütün bunların fövqündə isə onun əsl Azərbaycan xanımına xas nəcib keyfiyyətləri durur. O, dahi şəxsiyyət Heydər Əliyevin həyat yoldaşı idi və Azərbaycan xalqına ata vəsiyyətini layiqincə yerinə yetirən, Prezident İlham Əliyev kimi güclü lider bəxş edən ANADIR.

Ana-övlad sevgisinin, ana qayğısının ən gözəl parlaq nümunəsini isə bizcə, musiqinin dili ilə elə qızı Sevil xanım Əliyeva bəstələdiyi, ürəkləri riqqətə gətirən məşhur “Ana” mahnısı ilə çatdırıb:

*Ana, səsin aydın səhər ola,*
*Ana, qəlbin keşik çəkər bizə.*
*Yolum üstə uzaq səfər ola,*
*İşıq dolar nurdan düşən gözə.*
*Mənim görən gözüm sənsən, ana,*
*Ömrüm, günüm, özüm sənsən, ana*
*Laylay dedin ana, laylay dedin mənə,*
*Həyat verdin mənə, əziz ana.*
*Laylan hələ yaşar, laylan ellər aşar,*
*Günəş kimi yana yana, ana...*

**Samirə KƏRİMOVA**